**AZƏRBAYCAN RESPUBLİKASI**

**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

***Xidməti istifadə üçün***

# RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTUNUN ELMİ VƏ ELMİ-TƏŞKİLATİ FƏALİYYƏTİ HAQQINDA

**2025-ci ilin**

**H E S A B A T I**

**BAKI – 2025**

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| 1 | Giriş | 3 |
| 2 | Kadr potensialı | 3 |
| 3 | İnstitutun strukturu | 4 |
| 4 | Elmi tədqiqat işləri planının yerinə yetirilməsi | 5 |
| 5 | Mühüm nəticələr | 6 |
| 6 | Tətbiq olunmuş elmi nəticələr | 14 |
| 7 | Elmlə təhsilin inteqrasiyası | 15 |
| 8 | Beynəlxalq əlaqələr | 16 |
| 9 | Qrantlar | 18 |
| 10 | Elektron elmin vəziyyəti | 22 |
| 11 | Nəşriyyat fəaliyyəti | 23 |
| 12 | Beynəlxalq konfrans | 30 |
| 13 | Ümuminstitut seminarının fəaliyyəti | 32 |
| 14 | Şöbələrin seminarı | 34 |
| 15 | Dəvətli məruzələr | 35 |
| 16 | Elmi kadrların hazırlanması | 36 |
| 17 | Elmi Şuranın fəaliyyəti | 39 |
| 18 | Dissertasiya Şurasının fəaliyyəti | 39 |
| 19 | Maddi texniki təchizat | 40 |
| 20 | Sosial sferada fəaliyyət | 41 |
| 21 | Təltif və mükafatlar | 44 |
| 22 | Kitabxana | 45 |

# GİRİŞ

01 dekabr 2025-ci il tarixinə olan məlumata əsasən Riyaziyyat və Mexanika İnstitutunda 178 nəfər çalışır, onlardan 114 nəfəri elmi işçidir: 1 akademik, 5 nəfər Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü; 46 nəfəri elmlər doktoru, 49 nəfər fəlsəfə doktorudur.

## KADR POTENSİALI

| Yaş həddi | Elmi işçilər | | | Onlardan elmi dərəcəsi olanlar | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | elmlər doktoru | | | fəlsəfə doktoru | | |
| | cəmi | kişi | qadın | cəmi | kişilər | qadınlar | cəmi | kişilər | qadınlar |
| 30 yaşa qədər | 5 | 1 | 4 | - | - | - | - | - | - |
| 30-39 yaşda | 13 | 2 | 11 | - | - | - | 6 | 2 | 4 |
| 40-49 yaşda | 24 | 9 | 15 | 2 | 2 | - | 20 | 7 | 13 |
| 50-59 yaşda | 16 | 11 | 5 | 9 | 8 | 1 | 6 | 3 | 3 |
| 60-69 yaşda | 25 | 22 | 3 | 15 | 15 | - | 9 | 7 | 2 |
| 70 və yuxarı yaşda | 31 | 25 | 6 | 20 | 19 | 1 | 8 | 4 | 4 |
| Elmi işçilərin ümumi sayı | 114 | 70 | 44 | 46 | 44 | 2 | 49 | 23 | 26 |

## İNSTİTUTUN STRUKTURU

| № | Şöbələr | Ümumi say | Əvəz-çilər | e/d | f/d |
|---|---|---|---|---|---|
| 1 | Rəhbərlik | 4 | - | 2 | 1 |
| 2 | Mühasibatlıq | 4 | - | - | - |
| 3 | Kadrlar şöbəsi | 5 | - | - | - |
| 4 | Təhsil şöbəsi | 2 | 1 | 1 | - |
| 5 | Beynəlxalq əlaqələr şöbəsi | 4 | 1 | 1 | - |
| 6 | Ictimaiyyətlə əlaqələr şöbəsi | 4 | - | - | - |
| 7 | Sənədlərlə iş şöbəsi | 2 | - | - | - |
| 8 | Elmi texniki informasiya şöbəsi | 7 | - | - | - |
| 9 | Təchizat və xidmət şöbəsi | 16 | - | - | - |
| 10 | Funksional analiz şöbəsi | 22 | 7 | 10 | 9 |
| 11 | Riyazi analiz şöbəsi | 12 | 5 | 4 | 6 |
| 12 | Qeyri-harmonik analiz şöbəsi | 9 | 4 | 4 | 3 |
| 13 | Siqnalların emalının riyazi problemləri laboratoriyası | 4 | - | - | 2 |
| 14 | Funksiyalar nəzəriyyəsi şöbəsi | 7 | 2 | 3 | 3 |
| 15 | Diferensial tənliklər şöbəsi | 11 | 5 | 4 | 3 |
| 16 | Riyazi fizika tənlikləri şöbəsi | 12 | 2 | 3 | 5 |
| 17 | Optimal idarəetmə şöbəsi | 12 | 5 | 6 | 2 |
| 18 | Cəbr və riyazi məntiq şöbəsi | 10 | - | - | 3 |
| 19 | Dalğa dinamikası şöbəsi | 8 | 1 | 3 | 3 |
| 20 | Deformasiya olunan bərk cisim mexanikası şöbəsi | 14 | 2 | 2 | 6 |
| 21 | Maye və qaz mexanikası şöbəsi | 6 | - | 2 | 2 |
| 22 | Tətbiqi riyaziyyat şöbəsi | 3 | - | 1 | 1 |

## ELMİ-TƏDQİQAT İŞLƏRİ PLANININ YERİNƏ YETİRİLMƏSİ

Hesabat dövründə Riyaziyyat və Mexanika İnstitutunda elmi-tədqiqatlar **Riyaziyyat və Mexanika** sahələri üzrə (4-ü riyaziyyat, 2-si mexanika olmaqla) **6 elmi istiqaməti** əhatə edir:

- Harmonik analiz, qeyri-harmonik analiz, approksimasiya nəzəriyyəsi.
- Diferensial tənliklərin spektral və keyfiyyət nəzəriyyəsi.
- Optimal idarəetmə nəzəriyyəsi və variasiya hesabı.
- Azərbaycanda riyaziyyatın inkişafı tarixi.
- Deformasiya olunan bərk cisim mexanikası.
- Maye, qaz və plazma mexanikası.

| İl | Problem | Mövzu | İş | Mərhələ | Tamamlanmış | | | Mühüm nəticələr |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Mövzu | İş | Mərhələ | |
| 2025 | 6 | 16 | 87 | | | | | 10 |

Hesabat müddətində İnstitut əməkdaşları **6 istiqamət** (4-ü riyaziyyat, 2-si mexanika), **16 mövzu** üzrə (12-si riyaziyyat, 4-ü mexanika), **87 elmi tədqiqat işləri** (65-i riyaziyyat, 22-si mexanika) aparılmışdır.

Əməkdaşların aldıqları elmi nəticələr müxtəlif beynəlxalq və respublika səviyyəli elmi konfrans, simpozium və seminarlarda müzakirə edilmiş, mütəxəssislər tərəfindən bəyənilmiş və əksəriyyəti nüfuzlu jurnallarda çap olunmuşdur.

## MÜHÜM NƏTİCƏLƏR

2025-ci ilin noyabr-dekabr aylarında İnstitutun Elmi Şurasının iclaslarında 17 mövzu, 87 elmi işin hər biri üzrə elmi işçilərin hesabatları dinlənilmiş və aşağıdakı **10 elmi iş üzrə mühüm nəticə** qəbul edilmişdir:

- **Harmonik analiz, qeyri-harmonik analiz, approksimasiya nəzəriyyəsi**



“***b-bazis anlayışının çəp törəməli Banax qiymətli bir sərhəd məsələsinin həllolunanlığına tətbiqi***”.



İcraçılar: AMEA-nın müxbir üzvü, professor **Bilal Bilalov**
r.ü.f.d., dosent **Səbinə Sadıqova.**

Bixətti inikasın doğurduğu t-bazis anlayışı daxil edilmiş, *X* UMD (Undonditional Martingale Difference) fəza olduğu halda Boxner fəzasına baxılmış və klassik eksponent sistemin bu fəzada *t*-bazisliyi isbat olunmuşdur. Bu faktdan istifadə edərək klassik haldan fərqli olaraq vektor qiymətli Hardi sinifləri təyin olunmuş və bu təriflərin ekvivalentliyi isbat edilmişdir. Eksponent sistemin Boxner fəzasında *t*-Riss xassəsi anlayışı verilmiş və bu systemin *t*-Riss xassəsinə malik olması isbat olunmuşdur. *X* UMD fəza olduqda *X*-qiymətli Koşi tip inteqral üçün Plemel-Soxotski düsturları alınmışdır. Alınan nəticələr bir çəp törəməli sərhəd məsələsinin həllolunalığına tətbiq olunmuşdur.

**Mənbə**: **B.T.Bilalov, S.R.Sadigova**. The concept of t-basis and vector-valued Hardy classes.// Turkish Journal of Mathematics. 2025. v.49, №3, pp. 261-286 https://doi.org/10.55730/1300-0098.3588



***"Bircins tipli fəzalardan təyin olunan Musielak-Orlic-Morri fəzalarında potensial operator və onun kommutatorunun məhdudluğu".***



***İcraçılar:*** *AMEA-nın müxbir üzvü, professor* ***Vaqif Quliyev****, r.ü.f.d., dosent* ***Mehriban Ömərova****.*

Musielak-Orlic-Morri fəzalarında Riss potensialının güclü və zəif Adams tip məhdudluğu üçün kafi şərtlər tapılmışdır. Parabolik kəsr maksimal operator və onun kommutatorunun parabolik total Morri fəzalarında və bircins Li qruplarında maksimal operatorun kommutatorunun məhdudluğu üçün meyarlar alınmışdır.


**Mənbə:** 1. K. Dorak, F. Deringoz, **V.S. Guliyev**. Boundedness of the maximal operator and the Riesz potential on Musielak-Orlicz-Morrey spaces // **Hacettepe Journal of Mathematics and Statistics.** 2025. v.54, №2, -p.1–16. (**WOS IF-0.9**, **Q2)**
https://dergipark.org.tr/en/download/article-file/3882185

2. **M.N.Omarova**. Commutators of parabolic fractional maximal operators on parabolic total Morrey spaces// **Mathematical Methods in the Applied Sciences**, 2025. v.48, №11, -p.11037-11044. (**WOS İF- 1.8, Q1)** https://doi.org/10.1002/mma.10940

3. **V.S. Guliyev.** Characterization of commutators of the maximal function in total Morrey spaces on stratified Lie groups // **Analysis Mathematical Physics. 2025,** 15(2), -16 pp. (**WOS İF- 2.1. Q1** https://doi.org/10.1007/s13324-025-01038-w

4.



***“Çoxdəyişənli funksiyanın Ridge funksiyaların cəmi şəklində göstəriliş məsələsi”***

**İcraçı:** r.e.d., prof. **Rəşid Əliyev.**

İşdə kəsilməz çoxdəyişənli funksiyanın ridge funksiyaların cəmi şəklində göstərilişi üçün yeni şərtlər tapılmışdır. Bu şərtlərdən istifadə etməklə, A. Pinkusun “Ridge Functions” adlı monoqrafiyasında qoyulmuş məsələ yeni bir üsulla polinom dəqiqliyi ilə həll edilir. Başqa sözlə isbat edilir ki, əgər kəsilməz çoxdəyişənli funksiya istənilən təbiətli ridge funksiyaların cəmi şəklində göstərilə bilirsə, onda o, kəsilməz ridge funksiyaların və müəyyən çoxdəyişənli polinomun cəmi şəklində də göstərilə bilər.

**Mənbə: Rashid A. Aliev**, Fidan M. Isgandarli. On the representability of a continuous multivariate function by sums of ridge functions. // Journal of Approximation Theory. 2024, 304, paper 106105, -18 pp. https://doi.org/10.1016/j.jat.2024.106105

- **Diferensial tənliklərin spektral və keyfiyyət nəzəriyyəsi**



***“İkitərtibli xətti parabolik tənliklər üçün sərhəd şərtlərində zamana görə gecikmə olan birölçülü qarışıq məsələlərin tədqiqi”.***

**İcraçı:** AMEA-nın həqiqi üzvü, professor **Yusif Məmmədov**.

Dəyişən əmsallı bircins parabolik tənlik üçün bircins sərhəd şərtlərində zamana görə gecikmə olan qarışıq məsələnin həllinin

varlığı və yeganəliyi araşdırılmış,həll üçün kontur inteqralı şəkilində analitik ifadə tapılmışdır [1].

Sərhəd şərtlərində zamana görə gecikmə (qabaqlama) olan qarışıq məsələlərin İ.G.Petrovski mənada parabolik olmayan tənliklər üçün də tədqiqinə baza yaratmaq məqsədilə "ümumiləşmiş parabolik tənliklər" anlayışı verilmiş və belə tənliklər üçün Dirixle sərhəd şərtli qarışıq məslənin həllinin varlığı və yeganəliyi isbat edilmişdir [2].

**Mənbə:** [1] **Y. Mammedov**, H.I. Ahmedov, Existence and uniqueness of the solution of a mixed problem for a parabolic equation under nonconventional boundary conditions. // 19 November 2024, 2411.16109, v.1 (Math. Ap.), pp.1-19.
[2] **Y. Mammedov**, V.Y. Mastaliyev, On Existense and uniqueness of a the solution to a mixed problem for a class of non-classical equations. FILOMAT. 2025, 39:19, pp.6651-6664. https://journal.pmf.ni.ac.rs/filomat/index.php/filomat/article/view/25636.



***"Şturm-Liouvil operator tənliyinin fəzadan çıxmaqla operator realizasiyalarının spektrinin tədqiqi".***



**İcraçılar:** f.-r.e.d., prof. **Məmməd Bayramoğlu**, r.e.d., prof. **Nigar Aslanova**.

Işdə sərhəd şərtinə spektral parametrin Herqlotz- Nevanlinna tipli funksiyası və qeyri-məhdud operator daxil olan Şturm-Liouvil operator tənliyinin spektral xassələri öyrənilib. Bu işdə verilən tənlik və sərhəd şərtlərinə uyğun Hilbert fəzası qurulur və bu fəzada əldə edilən tənliyin sol tərəfindəki operatorun dissipativ, akkumlyativ və öz-özünə qoşma genişlənmələrin təyin oblastlarının təsviri verilib.

**Mənbə**: **Aslanova, N.**, Aslanov, K., & Kocinac, L. On some spectral problems for Sturm–Liouville equation with operator coefficients.// Mathematical Methods in the Applied Sciences 2025, (**Wos, Q1**).
DOI: https://doi.org/10.1002/mma.10893

- **Optimal idarəetmə nəzəriyyəsi və variasiya hesabı**



"***Daha mürəkkəb variasiya və optimal idarəetmə məsələlərində yeni kafi şərtlərin alınması***".

**İcraçılar:** AMEA-nın müxbir üzvü, professor **Misir Mərdanov,** r.ü.f.d. **Samin Telman Məlik.**



Təqdim olunan iş Mayer tipli optimal idarəetmə məsələlərində Pontryagin ekstremallarının optimallığının tədqiqinə həsr olunmuşdur. İşdə ilk növbədə yeni tip məxsusi idarə anlayışı daxil edilir. Daha sonra baxılan məxsusi idarəediciyə yeni xüsusi variasiya verilir. Bərabərlik və bərabərsizlik formalarında optimallıq üçün daha dəqiq zəruri şərtlər almaq məqsədi ilə iki tip variasiyadan: qeyd olunmuş nöqtədən sağda və solda verilmiş variasiyalardan istifadə olunur. Onu da qeyd etmək lazımdır ki, alınmış zəruri şərtlər ədədi parametrlərdən də asılıdır. Bu zəruri şərtlərdən istifadə edərək məqsəd funksiyasının ikinci variasiyası öyrənilmiş və məlum Kelli şərtləri alınmışdır.

**Mənbə**: **M.J.Mardanov, ST Malik**. Necessary optimality conditions for a new type of singular controls in optimal control problems.// International Journal of Control, 2025, 1-12.
https://doi.org/10.1080/00207179.2025.2522179

- **Azərbaycanda riyaziyyatın inkişafı tarixi**



***"NəsirəddinTusinin "Evklidin şərhi" əsərində düz xətt parçalarının hasili haqqında".***



**İcraçılar:** f-r.e.n., dosent **Əli Babaev, Valeriya Məclumbəyova.**

Antik dövrdə iki düz xətti bir-birinə vurmaq anlayışı olmayıb. Hətda Dekart (1596-1650) özünün "Həndəsə" əsərində iki düz xəttin hasilini düz xətt kimi təyin edir. Elm tarixində ancaq Lejandr həndəsi kəmiyyətlərlə ədədlər arasında qarşılıqlı birqimətli uyğunluq yaratdıqdan sonra düz xətt parçalarının hasilinə səth kimi baxılıb. N.Tusinin "Evklidin şərhi" əsərini tədqiq edərkən bu əsərdə Tusinin düz xətt parçalarının hasilinin səth əmələ gətirdiyi müəyyən edilmişdir. Evklidin şərhində ikinci məqalə belə başlayır: *Düzbucaqlı paraleloqramın hər hansı düz bucagından birinə yanaşı olan iki xəttə "əhatə edənlər" deyilir.* ***Deyirəm və təkid edirəm ki, bu səth (bu xətlərin) birinin digərinə vurulmasından alınır.*** Göründüyü kimi burada N.Tusi düz xətlərin hasilindən səth əmələ gəldiyini deyir. "Evklidin şərhi" əsəri 1657-ci ildə Londonda latın dilində çap edilmişdir. Con Vallis (1616-1703) «Opera matematica» əsərində Evklidin "Əsaslar" kitabını şərh edərkən Tusinin bu əsərindən istifadə etmişdir. **Deməli Vallisdən 4, Lejandrdan 5-6 əsr əvvəl düz xətlərin hasilinin səth olduğunu Tusi "Evklidin şərhi" əsərində göstərmişdir**. Bu əsərdə Tusi Evklidin teoremlərinin çox sadə isbatlarını vermişdir.

**Mənbə**: **А.Бабаев, В.Меджлубеова**. Наука и техника: Вопросы истории и теории. Материалы XLI Международной научной конференции Санкт-Петербургского Отделения РАН по истории и философии науки и техники РАН. 27-31 октября 2025, вып. XLI, с.127.

- **Deformasiya olunan bərk cisim mexanikası**



***"İrsi xassəli cisimlərin istənilən yüklənmələr altında müddət möhkəmliyi haqqında".***

**İcraçı**: f.-r.e.d. prof. **Lətif Talıblı.**

İrsi xassəli materialların istənilən xarici yüklənmə rejimləri altında müddət möhkəmliyinin xarakteristikaları olan yüklənmə tezliyini, amplituda dəyişməsini və maksimal səviyyəni ifadə edən üç fuksional qurulmuş, materiallarda zədələnmələrin təkamülünü müəyyən edən kinetik tənlik alınmış, ilkin defektlərin yaranma anını təyin edən zədələnmə şərtinin, materialının dağılma vaxtını (xidmət müddətinin sonunu) tapmağa imkan verən möhkəmlik şərtinin riyazi ifadələri alınmışdır.
**Mənbə**: **L.Talıblı**. "Mexanikada yeni meyllər üzrə" İnternatıonal congress on new trends ın mechanıcs, 02 - 05 September 2025, Azerbaijan State Pedagogical University, Baku, p.124-135.

- **Maye, qaz və plazma mexanikası**



***"Məsaməli mühitdə faza çevrilmələrinə və axınlara maye tərkiblərin təsirlərinin tədqiqi. Qaz qarışıqlarının flüidlərdə həll olunma mexanizmləri".***



***İçraçılar:*** *AMEA-nın müxbir üzvü, professor* ***Qeylani Pənahov,*** *t.e.n., dosent* ***Eldar Abbasov.***

Karbohidrogenlə doymuş məsaməli mühitlərə qaz injeksiyasında qarışıqlarda yaranan qeyri-stasionar proseslər tədqiq

olunmuş, iqtisadi, energetik və ekoloji effektivlik baxımından vurulan $CO_2$-dən istifadə edərək innovativ həllər alınmışdır.

**Mənbə**:

1. Yindi Zhang, Shadrack Adjei Takyi, Zhengqin Sheng, Lei Zhenhua, Weiwei Han, Paitoon Tontiwachwuthikuld, **Geylani Panahov**. Innovative techno-economic optimization and evaluation of carbon dioxide capture: A novel approach to energy efficiency and cost reduction // Energy Conversion and Management, v.348, Part B, 2026, 120695, https://doi.org/10.1016/j.enconman. 2025.120695. (**Q1, Scopus, WoS**).

2. **Panahov G., Abbasov E.**, Agayeva G., Mamedov I. (2024). Control of the capillary instability process during hydrodynamic impact on the reservoir.// Transactions - issue Mechanics, series of physical-technical & mathematics sciences, Azerbaijan National Academy of Science, 44(8), 37-57.



***"Kütlə köçürülməsi və mübadiləsini nəzərə alaraq ikifazalı mühitin boruda hərəkət dinamikası".***

***İcraçı:*** *m.e.d., dosent* ***Elxan Abbasov.***

Lay-quyu sistemində kütlə köçürülməsi və mübadiləsi nəzərə alınaraq neft-su qarışığının hidrodinamik modeli qurularaq fiziki prosesi təsvir edən tənliklər sistemi alınmış və onların həlli verilmişdir. Boru kəmərində və layda təzyiq paylanmasını və layın məhsuldarlığını sistemin parametrlərindən asılı olaraq müəyyənləşdirməyə imkan verən analitik ifadələr alınmışdır. Sistemin parametrlərinin praktik qiymətləri üçün ədədi hesablamalar aparılmışdır. Alınan nəticələr neftqazçıxarmada və neftin-qazın nəqli prosesində istifadə edilə bilər.

**Mənbə:** Hydrodynamics of the oil-mixture flow in pipeline. Journal of "Engineering Thermophysics", 2025, v.34, №3, pp. 661-670. (**WoS, Scopus, IF-1.4, Q3**)

# TƏTBİQ OLUNMUŞ ELMİ NƏTİCƏLƏR

İnstitutun "Maye və qaz mexanikası" şöbəsinin əməkdaşları AMEA-nın müxbir üzvü, professor **Qeylani Pənahov** və texnika elmləri dopktoru, dosent **Eldar Abbasov** karbohidrogen yataqlarının işlənməsində laylarda quyudibi zonalarında kolmatant yığılmaları nəticəsində istismar göstəricilərinin mürəkkəbləşmələrini nəzərə alaraq, termoqazkimyəvi əsaslandırmalarla məsaməli mühitlərdə yaranmaların aradan qaldırılması üçün texnoloji həllərdən olan suffoziyalı təmizləmənin daha effektiv olduğunu göstərmişdirlər.

Yeni texnoloji metod Binagadi Oil şirkətinin yatağında 220100 və 223107 saylı istismar quyularında uğurla tətbiq edilmişdir. Təcrübə-sənaye işlərinin nəticələri üsulun yüksək istehsal effektivliyini göstərdi və orta maye istehsalının gündə 0,5 $m^3$-dən orta hesabla 4,3 - 4,7 $m^3$/sut qədər artdığını təsdiqlədi.



## ELMLƏ TƏHSİLİN İNTEQRASİYASI

İnstitutun əməkdaşları elmi-tədqiqat işləri ilə yanaşı ölkəmizin müxtəlif təhsil müəssisələrində: Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, ADA Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Xəzər Universiteti, Sumqayıt Dövlət Universiteti, Mühəndislik Akademiyası, Bakı Ali Neft Məktəbi, Qarabağ Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Lənkəran Dövlət Universiteti, Azərbaycan Universiteti, ADPU-nun Quba filialında mühazirələr oxumuş, ixtisas kursları aparmış, bakalavr və magistr dissertasiya işlərinə elmi rəhbərlik etmişlər.

**Yekun Dövlət Attestasiya Komissiyalarına sədrlik**: AMEA-nın müxbir üzvü, professor **Bilal Bilalov** (**BDU** bakalavr pilləsi), **İbrahim Nəbiyev** (**ADNSU** magistr pilləsi), **Soltan Əliyev** (Naxçıvan Dövlət Universiteti).

**Azərbaycan Dövlət İmtahan Mərkəzinin** qəbul imtahanlarının keçirilməsində və test proqramlarının hazırlanmasında İnstitutun bir neçə əməkdaşı iştirak etmişdir.

Azərbaycan Dövlət İmtahan Mərkəzinin «**Abituriyent**» jurnalının redaksiya heyətinin üzvü f-r.e.n. **Əbdürrəhim Quliyev** Tələbə Dövlət Komissiyasında **riyaziyyat üzrə ekspert** qismində fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında **AAK-ın Rəyasət Heyətinin üzvü** AMEA-nın müxbir üzvü, professor **Vaqif Quliyev**, **Ekspert Şurasının üzvləri** professorlar: **Telman Məlikov, Elxan Abbasov, Rəşid Əliyev, Aqil Xanməmmədov, Elşad Eyvazov** və **Telman Qasımov** fəaliyyətlərini davam etdirmişlər.

AMEA-nın müxbir üzvü, professor **Bilal Bilalov Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində** Riyaziyyat dərsliklərinin qiymətləndirilməsi üzrə **eksperti və Azərbaycan Milli Ensiklopediyasının Redaksiya heyətinin üzvüdür**.

Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin və Sumqayıt Dövlət Universitetinin tələbələri İnstitutda **təcrübə keçmişlər**.

## BEYNƏLXALQ ƏLAQƏLƏR

Hesabat müddətində İnstitut bir çox xarici ölkələrin aparıcı elmi mərkəzləri ilə və bir sıra elmi tədris müəssisələrlə fəaliyyət davam etdirilmişdir:

- "Neftin və qazın hidrodinamika məsələlərinin tədqiqi, yeni neftqazçıxarma texnologiyalarının tədqiqi və işlənməsi" **Rusiya Təbiət Elmləri Akademiyası; Neftqazçıxarma Proseslərinin Sistemli Tədqiqatlar İnstitutu** (Rusiya, Moskva);
- **New Mexico Institute of Mining and Technology** (ABŞ);
- "Neftmədən mexanikası məsələlərinin tədqiqi; yeni neftqazçıxarma texnologiyalarının tədqiqi; işlənməsi və tətbiqi" **GCC Group İnc. Çin Xalq Respublikası** (Pekin ş.).
- "Boru kəmərlərinin gel kompozisiyaları ilə təmizlənməsi" innovativ texnologiya **"Vietsovpetro" Vyetnam Sosialist Respublikası** (Vunqtau ş.)
- "Müxtəlif sinif şaxələnən təsadüfi proseslərin tədqiqi" **İvano Franko adına Lvov Milli Universiteti Ukrayna**.
- "Funksional fəzalar nəzəriyyəsi və harmonik analizin problemləri" **REA-nın V.A.Steklov adına Riyaziyyat İnstitutu, Xalqlar Dostluğu Universiteti** (Rusiya, Moskva ş.).
- "Approksimasiya və freym nəzəriyyəsinin bəzi məsələləri" **Danimarka Texniki Universiteti** (Lünqbü-Torbek ş.)
- "Dəyişən dərəcəli fəzalarda elliptik tip tənliklər üçün aradan qaldırma və approksimasiya məsələləri" **Salerno Universiteti** (İtaliya, Salerno ş.).
- **REA Sibir Bölməsi S.L.Sobolev adına adına Riyaziyyat İnstitutu** (Rusiya, Novosibirsk ş.)
- **Samara Aerokosmik Universiteti** (Rusiya)
- **Aliqarx Müslüm Universiteti** (Hindistan, Uttar Pradesh ş.)

- **Başqırdıstan Dövlət Universiteti** (Rusiya, Ufa ş.)
- **Başqırdıstan Dövlət Universiteti** Sterlitamak filialı (Rusiya, Sterlitamak ş.)
- **M.V.Lomonosov adına Moskva Dövlət Universiteti (Rusiya. Moskva),**
- **Tbilisi Dövlət Universiteti və A.Razmadze adına Riyaziyyat İnstitutu (Gürcüstan, Tbilisi ş.)**
- **Türkiyənin İstambul Texniki Universiteti, Hacattepe Universiteti, Sivas Universiteti, Tokat Universiteti, Koç Universiteti, Mersin Universiteti;**
- ***Khalifa University* (*Birləşmiş Ərəb Əmirlikləri*);**

Bunlardan əlavə 2025-ci ildə müqavilə əsasında beynəlxalq əməkdaşlıq davam etdirilmişdir**:**

1. “Panstwowa Akademia Nauk Stosowanych W Chelmie” (“**Dövlət Tətbiqi Elmlər Akademiyası**”), Xelm şəh., **Polşa**
2. **Yildiz Technical University**, İstambul, **Türkiyə.**
3. **Rusiya EA-nın S.I. Vavilov adına Təbiət Elmləri və Texnikanın Tarixi İnstitutunun Federal Dövlət Büdcə Elm Təşkilatının Sankt-Peterburq filialı**, Sankt-Peterburq şəh., **Rusiya**.
4. **Şərəf Rəşidov adına Səmərqənd Dövlət Universiteti,** Səmərqənd şəh., **Özbəkistan**.
5. **Özbəkistan Respublikası Məhəmməd-əl-Xorezmi adına Daşkənd İnformasiya Texnologiyalar Universitetinin Səmərqənd filialı** (Səmərqənd şəh., **Özbəkistan**).
6. **Özbəkistan Respublikası Elmlər Akademiyasının V.İ.Romanovski adına Riyaziyyat İnstitutu** (Daşkənd şəh., **Özbəkistan**).

Hesabat ilində **ABŞ-da yaşayan** Yalçın Əfəndiyev, Azər və Anar Əhmədov qardaşları; **Meksikada** yaşayan Mübariz Zəfər oğlu Qarayev, **Səudiyyə Ərəbistanda** yaşayan Mübariz Tapdıq oğlu Qarayev, **Türkiyədə** yaşayanlar İlham Əliyev, Fəxrəddin Abdullayev, Anar Dosiyev, Surxay Əkbərov, Varqa Kələntərov, Daniyal İsrafilov, Rauf Əmirov, Oqtay Muxtarov, Sədulla Cəfərov, Azər Xanməmmədov, Xanlar Məmmədov, Azər Kərimov, Zaməddin

İsmayılov, Mənsur İsmayılov, Emil Novruzov, Elimxan Mahmudov, Manaf Manafov, Oqtay Vəliyev, Vəli Şahmurov, **Kiprdə** yaşayan Nazim Mahmudov, Ağamirzə Bəşirov, Adıgözəl Dosiyev; **Rusiyada** yaşayan Qaraxan Mirzəyev aparıcı elm və təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyətlərini davam etdirmiş və İnstitutun elmi və elmi-təşkilatı fəaliyyətində yaxından iştirak etmişlər.

## QRANTLAR

### Azərbaycan Elm Fondunun Ümummilli Lider Heydər Əliyevin 100-illik yubileyinə həsr olunmuş "Əsas Qrant müsabiqəsi - 2023":

**Layihənin adı:** "Qrand Sobolev fəzalarında elliptik tənliklərin fredholmluğu".
**Layihə rəhbəri:** r.ü.f.d. **Eminağa Məmmədov.**
Layihənin icra müddəti: **01.12.2023 – 01.12.2025.**
Qrantın məbləği: **200000** manat (iki yüz min manat).

$(T_\delta f)(x) = f(x+\delta)$ sürüşmə operatorunun izometrik olduğu additiv-invariant fəzalar üzərində Banax-Sobolev fəzalarında iz operatorunun təyini, əsaslanması, onun məhdudluğu, sonsuz differensiallanan finit funksiyaların sıx olduğu altfəzaların spesifik xassələri və onların təsviri, bu altfəzalarda baxılan Laplas operatorunun fredholmluğu (nöterliyi), indeksi, integral operatorların, xüsusi halda Ris potensialının məhdudluğu, bu fəzalardan olan funksiyalar üçün inteqral göstəiriliş teoremləri, yüksək tərtibli elliptik operatorlar üçün daxili tip Şauder qiymətləndirmə, grand Lebeq fəzası və onun doğurduğu Hardi siniflərinin addiriv-invariant (xüsusi halda, simmetrik fəzaların da daxil olduğu) fəzalar üçün analoqları verilmiş, ümumi halda Dirixle məsələsinin həll olunma problemi və separabel alt fəzanın doğurduğu Hardi siniflərində çəp törəməli bir sərhəd məsələsinin Nöterliyi və onun indeksi, $(0;2\pi)$ aralığında təyin edilmiş xüsusi tip Orliç fəzalarının xassələri, qeyri-local sərhəd məsələsi üçün iki tərtibli adi diferensial operatorun məxsusi funksiyalarından təşkil

edilmiş triqonometrik sistemin bazislik məsələsi, additiv-invaraint (xüsusi halda, simmetrik, o cümlədən, qrənd Sobolev) fəzalarda və uyğun Banax-Sobolev fəzalarında kompaktlıq kriteriyaları, kompakt daxil olmalar, ekvivalent normalar, Puankare, Fridrixs bərabərsizlikləri, səhrəddə kimi Şauder tipli qiymətlənmələr, ikitərtibli elliptik tənliklər üçün Dirixle məsləsinin birqiymətli həll olunması, fredholmluluğu öyrənilmişdir.

Bundan əlavə, additiv-invariant fəzaları da özündə ehtiva edən müəyyən bir Banax funksiyalar sinfi daxil edilmiş, onların additiv-invariant fəzalara izomorfluğu isbat edilmişdir.

**Çap edilmiş işlər:**


1.**Mamedov E.M.,** Ismailov N. A. On some structural properties in Banach function spaces, Taransactions. Nat. Acd sci. Azerb. Ser. Phys. Tech. Math. Sci. Mathematics, 43(4), 114-127 (2023). https://trans.imm.az/volumes/43-4/4304-11.pdf

2. Bilal Bilalov, Yonca Sezer, Umit Ildiz, **Tural Hagverdi**, On the basicity of one trigonometric system in Orlicz spaces. Trans. Natl. Acad. Sci. Azerb. Ser. Phys.-Tech. Math. Sci. Mathematics, 44 (1), 31-40 (2024). https://doi.org/10.30546/2617-7900.44.1.2024.31

3. **Mamedov E.M.,** Nasibova N.P., Y.Sezer. Some remarks on integral operators in Banach function spaces and representation theorems in Banach-Sobolev spaces. Azer. Journ. of Math. 2024, v. 14, N2. 189-204. https://azjm.org/volumes/1402/pdf/1402-14.pdf

4. **Mamedov E.M.,** Y. Sezer. Some remark on Laplace equation in grand Lebesgue-Hardy classes. Modern problems of Mathematics and Mechanics. XI International Conference dedicated to the memory of the genius Azerbaijani scientist and thinker NASIREDDIN TUSI. July 03-06, 2024, p.341-343. https://mpmm.imm.az/abstract-2024.pdf#viewer.action=download

5.Z.C. Zabidov, Kh.M. Gadirova, **A.I. Mirzebalayeva**, Assessment of vegetation cover of territories using various indices. Modern problems of Mathematics and Mechanics. XI International Conference dedicated to the memory of the genius Azerbaijani scientist and thinker Nasireddin Tusi. July 03-06, 2024, p.80. https://mpmm.imm.az/abstract-2024.pdf#viewer.action=download

6. **E.M. Mamedov**, S. Cetin. Interior Schauder-type estimates for m-th order elliptic operators in rearrangement-invariant Sobolev spaces, Turk J Math., 48(4), 2024, 793-816.
https://journals.tubitak.gov.tr/math/vol48/iss4/
7. S. R. Sadigova, **E.M. Mamedov**., N. P. Nasibova. On the index of a problem with an oblique derivative in weighted Sobolev space. Trans. Natl. Acad. Sci. Azerb. Ser. Phys.-Tech. Math. Sci. Mathematics. 2025, 44 (4), 122-138. https://trans.imm.az/volumes/44-4/4404-13.pdf
8. Bilalov B.T., **Mamedov E.**,Y. Sezer; N. Nasibova. Compactness in Banach function spaces. Poincare and Friedrichs inequalities. Rendiconti del Circolo Matematico di Palermo Series 2. 2025, DOI:10.1007/s12215-024-01172-7
9. **E. Mamedov**, Y. Sezer, A.R. Safarova. On solvability of one boundary value problem for laplace equation in Banach-Hardy classes. Journal of Contemporary Applied Mathematics. 2025, June, v. 15, № 1, 25-43, ISSN 2222-5498, E-ISSN 3006-3183,
https://doi.org/10.62476/jcam.151.3

**Çapa qəbul edilmiş işlər:**

10. **Mamedov E.,** Sezer Y,. **Farhadova Y**.Schauder-type Estimate up to Boundary in Banach-Sobolev Spaces. Turk. J. Math. (has been accepted)
11. **Eminaga M. Mamedov.** Sabir S. Mirzoyev. Aygun T. Garayeva. Rahima M. Sadigova. Poincare and friedrichs-type inequalities, convolution operators and riesz potential in one class of non classical spaces. Trans. Natl. Acad. Sci. Azerb. Ser. Phys.-Tech. Math. Sci. Mathematics,
12.Sabir S. Mirzoyev, **Eminaga M. Mamedov**, Nargiz Suleymanova. On one class of banach function spaces defined by shift operators. Azerbaijan Journal of Mathematics.

**Azərbaycan Elm Fondunun “Yaşıl dünya naminə həmrəylik ili”**nə həsr olunmuş **“Əsas Qrant müsabiqəsi-2024”**:

**Layihənin adı:** “Qrand Sobolev fəzalarında funksional dərəcəli lövhələrlə bağlı elliptik tənliklərin həlli üçün Qalerkin və Rits üsullarının işlənməsi”

**Layihə rəhbəri:** r.ü.f.d., dos. **Səbinə Sadıqova.**
Layihənin icra müddəti: **01.11.2024-30.10.2027-ci il**.
Qrantın məbləği: **180000** manat (yüz səksən min manat).

Qrənd fəzalarında Qalerkin və Rits üsullarının tətbiqi bu fəzalarda triqonometrik sistemlərin bazisliyinə əsaslandığından hesabat dövrü ərzində ilk öncə bu tip sistemlərin uyğun qrənd Lebeq fəzalarında bazisliyi öyrənilmiş və bu istiqamətdə əlaqəli nəticələr alınmışdır. Alınmış nəticələr aşağıdakı məqalələrdə öz əksini tapmışdır.


1. Sabina R. Sadigova. On basicity in Bochner space Lp ((−π, π) ; X) and Riesz property.//Trans. of ANAS Ser. Phys.-Tech. Math. Sci. Mathematics, 45 (1), 115-122 (2025). https://doi.org/10.30546/2617-7900.45.1.2025.0115
2. Bilal T.Bilalov, Sabina R. Sadigova, Y. Sezer. Vector-valued grand Hardy classes. Journal of Contemporary Applied Mathematics v. 15, №1, 2025, pp.122-155
3. B.T.Bilalov, N.R.Ahmedzade, Z.A.Kasumov, The weighted grand lebesgue class of harmonic functions and the dirichlet problem.// Lobachevskii Journal of Mathematics, 2025, v. 46, № 1, pp. 377-387
4. Bilal T. Bilalov, Sabina R. Sadigova, The concept of t-basis and vector-valued Hardy classes.// Turkish Journal of Mathematics. Vol 49, No. 3, pp. 261-286 https://doi.org/10.55730/1300-0098.3588
5. B.T. Bilalov, N.P. Nasibova, V.Q. Alili. On the strong solvability of a nonlocal boundary value problem for the laplace equation in an unbounded domain. //Journal of Contemporary Applied Mathematics v. 15, №1, 2025, pp. 92-106 https://doi.org/10.62476/jcam.151.7
6. Gasymov, T.B., Sadigova, S.R. & Feyzullayev, I.Q. On the Noetherness of one mixed boundary value problem for Laplace equation in the weighted Sobolev space. *J Math Sci* (2025).
7. Bilal T. Bilalov, Sabina R. Sadigova, Natavan P. Nasibova, Fredholmness of the Dirichlet problem for 2m-th order elliptic equations in grand Sobolev spaces. //Mathematical Methods in the Applied Sciences. 2025

**Azərbaycan Elm Fondunun "Əsas Qrant müsabiqəsi-2025"**:
**Layihənin adı:** "Torpaq şoranlaşmasının, veyvletanaliz və neyron şəbəkə metodlarının tətbiqi ilə, spektral təsvirlər əsasında qiymətləndirilməsi"
**Layihə rəhbəri:** t.ü.f.d. **Zakir Zabidov.**
Layihənin icra müddəti: **01.11.2025-01.11.2027-ci il**.
Qrantın məbləği: **150000** manat (yüz əlli min manat).

## ELEKTRON ELMİN VƏZİYYƏTİ

İnstitutunun veb səhifəsində (**www.imm.az**) bütün məlumatlar 3 dildə (Azərbaycan, ingilis və rus dillərində) təqdim edilir. Veb səhifədə İnstitutun tarixi, hazırdakı fəaliyyəti; Elmi Şura; Ümuminstitut seminarı; Görüşlər; Dissertasiya şurası (Avtoreferat və Dissertasiyalar); Əməkdaşların elmi əsərləri haqqında məlumatlar; Şöbələrin hesabatları; Konfranslar; Elmi sessiya, Jurnallar; Dünyada riyaziyyat və mexanika elmləri sahəsində ən mühüm yeniliklər və hadisələr.

İl ərzində www.imm.az saytına 640 xəbər yerləşdirilmiş və dünyanın 121 müxtəlif ölkəsindən 55477 baxış olmuşdur.

# NƏŞRİYYAT FƏALİYYƏTİ

| Elmi müəssisənin adı | Kitab. monoqr., məqalələrin, tezislərin | Kitablar | Monoqrafiyalar | Məqalələr | Tezislər | O cümlədən xaricdə dərc olunmuşdur | | | | | Dərsliklər və elmi-kütləvi nəşrlər | İşçil\ərin əsərlərinə olan istinadların sayı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | Kitablar | Monoqrafiy. | Məqalələr | Tezislər | İmpakt faktorlu jurnallarda dərc | | |
| RMİ | 254 | 3 | 2 | 126 | 100 | | 2 | 88 | 37 | 93 | 23 (2 test topl. 2 dərs-lik, 19 e/p. məq.) | 2260 |

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Elm və Ali Təhsil üzrə dövlət Agentliyinin 06 iyun 2024-cü il tarixli, 3-29-68/2-821/24 nömrəli məktubuna əsasən 2018-2023-cü illlərdə **Scopus elmmetrik bazasına** daxil olan jurnallarda **çap olunmuş elmi nəticələrinə görə** Riyaziyyat və Mexanika İnstitutunun 35 nəfər əməkdaşına A kateqoriyası üzrə 1300, B kateqoriyası üzrə 1000 və C kateqoriyaları üzrə 650 manat məbləğində **aylıq ödəniş** verilmişdir.

Hesabat ilində **2 monoqrafiya**:




**Bilal Bilalov.** Understanding Function Spaces. Nova Science Publishers, 2025, 181 p.




Jafari, H., Tajadodi, H., & **Gasimov, Y.S.** (2025). *Modern Computational Methods for Fractional Differential Equations*. Taylor & Francis. London. 159 səh. **(Scopus)**

**3 elmi-populyar kitab:**



**Misir Mərdanov**, Ədalət Tahirzadə. 1920-ci ilə qədər ali məktəblərdə oxumuş azərbaycanlılar (Ensiklopedik soraq kitabı) Bakı 2025-ci il, IX cild, Təhsil nəşriyyatı. 640 s.




**Əli Babayev**. Nəsirəddin Tusi - Ensiklopedist Alim, Görkəmli Şəxsiyyət. Elm Nəşriyyatı, 2025-ci il, 144 səh.




**Əli Babayev**, Qalina İvanovna Sinkeviç və b. Отечественные историки математики. Библиографический справочник**.** Санкт-Петербург, 2025 г., 529 стр.




**2 dərs vəsaiti**:

**Mahir Səbzəliyev**, İlhamə Səbzəliyeva, Məhbubə Kərimova. Diferensial tənliklər. Bakı: Elm nəşriyyatı, 288 səh.




**Aygün Ömərova**, R.F. Babayev, T.S. Orucov, "Müstəvi üzərində həndəsi çevirmələr", Mingəçevir 2025, 180 səh.

**2 test toplusu:**




**Əbdürrəhim Qliyev**. "Riyaziyyat" Test toplusu. DIM-"Abituriyent" 2025. I hissə (232 səh.) və II hissə (350 səh.)

## Hesabat dövründə İnstitutda 4 jurnal nəşr olunmuşdur:




İnstitutun **«Proceedings»** jurnalı 1946-cı ildən dərc olunur. 2025-ci ildə **51-ci cild, №1, №2** çap olunmuşdur. Jurnal 01 iyun 2016-cı ildə **Clarivate Analyticsin** ilkin bazasına daxil edilmişdir. Jurnal 2023-cü ildə Web of science bazasına daxildir. İF- 0,9, **$Q_2$** cvartilinə daxildir. Scopus bazasında **İF 0.38**-dir, **$Q_2$** cvartilinə daxildir.




**"AMEA-nın Xəbərləri"** jurnalı (**riyaziyyat** buraxılışı) 1992-ci ildən İnstitutda dərc olunur. Hesabat ilində **45-ci cild, №1, №2** çap olunmuşdur. Jurnal 2018-ci ilin sentyabr ayından **Scopus** bazasına daxildir, **İF 0.34-dir, $Q_2$** cvartilinə daxildir.




**"Azerbaijan Journal of Mathematics"** 2011-ci ildən dərc olunur. Hesabat ilində **15-ci cild, №1, №2** https://azjm.org/ elektron nəşr olunub. Jurnal 22 dekabr 2015-ci ildə **Clarivate Analytics** ilkin bazasına daxil edilmişdir. **İF 0,66**, **$Q_3$** cvartilinə daxildir. **Scopusun** bazsında, **İF 0.51**-dır, **$Q_2$** cvartilinə daxildir.




İnstitutun **"AMEA-nın Xəbərləri"** (**mexanika** buraxılışı) 2015-ci ildən dərc olunur. Hesabat ilində **45–ci cild №7, №8** çap olunmuşdur.

***İnstitutun əməkdaşları xarici ölkələrin bir sıra nüfuzlu elmi jurnallarının redaksiya heyətinin üzvü:***

- ✓ AMEA-nın müxbir üzvü, professor **Misir Mərdanov** Чебышевский сборник və TWMS Journal of Applied Mathematics (Turkis World Mathemtical Society), .
- ✓ AMEA-nın müxbir üzvü, professor **Vaqif Quliyev** "Integral Transforms and Special Functions" (Integral Transforms Spec. Funct.), "Eurasian Mathematical Journals" və "Communications de la Faculté des Sciences de l'Université d'Ankara. Séries A1. Mathematics and Statistics", "TWMS Journal Pure and Applied Mathematics".
- ✓ AMEA-nın müxbir üzvü, professor **Kamil Aydazadə** Ege University Journal of the Faculty of Science, Прикладная математика и фундаментальная информатика, TWMS Pure and Applied Mathematics.
- ✓ Professor **Hamlet Quliyev** Advanced Mathematical Models & Applications.
- ✓ Professor **Ramin Rzayev** Автоматизация и измерения в машино-приборостроении.
- ✓ R.e.d. **Yusif Qasımov** Jomard Publishing nəşriyyatının təsisçisi və direktoru, Advanced Mathematical Models & Applications – beynəlxalq jurnalının baş redaktoru, Journal of Modern Technology and Engineering, Applied Mathematics & Information Sciences və Fractals (İF -3.3, Q1) jurnalının xüsusi buraxılışının redaktorudur.
- ✓ Professor **Qabil Əliyev** İnternational Journal Polimers Research (ABŞ) və İnternational Journal of Applied Geoinformations (Kanada).
- ✓ Professor **Məmməd Bayramoğlu** Balkan Journal of Mathematics.
- ✓ Professor **Nigar Aslanova** Balkan Journal of Mathematics;
- ✓ AMEA-nın müxbir üzvü, professor **Bilal Bilalov** Sahand Communications in Mathematical Analysis (SCMA); International Journal of Mathematical Analysis; Journal of Function Spaces; International Journal of Mathematical Analysis.
- ✓ Professor **Asəf Zamanov** Mechanics of Composite Materials, Післядипломна освітав Україні.

✓ AMEA-nın müxbir üzvü, professor **Qeylani Pənahov** Extrica Nəşriyyatının Liquid and Gaseous Energy Resources, Вестник АН РБ (Rusiya, Başqırdıstan), Проблемы механики (Özbəkistan), “Нефтепромысловое дело” (Ufa Dövlət Neft Texnoloji Universiteti), “Проблемы механики” (Özbəkistan EA).

✓ R.e.d. **Rövşən Bəndəliyev** "Journal of Function Spaces" və "Journal of Applied Mathematics" jurnalının redaksiya heyətinin üzvüdür.

***İnstitutun əməkdaşları xarici ölkələrin bir sıra nüfuzlu elmi jurnallarının redaksiya heyətinin rəyçiləri:***

✓ AMEA-nın müxbir üzvü, professor **Bilal Bilalov** Applicable Analysis; Turkish Journal of Matheamtics; Journal of Mathematical Sciences, Mathematical Methods in the Applied Sciences; Journal of Taibah University for Science; Boundary value problem; Filomat; Afrika Mathematica; Integral Transforms and Special Functions; Complex Variables and Elliptic Equations; Mathematica Slovaca və Mathematical Review; Zentralblatt Math platformasında.

✓ AMEA-nın müxbir üzvü, professor **Vaqif Quliyev** Journal of Fourier Analisys and Applications, Integral Transforms and Special Functions, Journal of Function Spaces, Journal of Mathematical Inequalities, Journal of Mathematical Analisys and Applications, Mathematische Nachrichten, Complex Variables and Elliptic Equations, Communications in Mathematical Analysis, Journal of Inequalities and Applications, Collectanea Mathematica, Journal of Inequalities and Applications.

✓ Professor **Lətif Talıblı** “International Journal of fatique” (Elsevier), “Journal of Pharmaceutical Research International”, “Applied Mathematics and Computation” (Elsevier), “Journal of Computation & Modeling” **.**

✓ R.e.d., professor **Vüqar İsmayılov** Neural Networks, SIAM Journal on Optimization, Mathematical Methods in the Applied Sciences, Mathematics of Computation, SIAM Journal on Numerical Analysis, IMA Journal of Applied Mathematics.

✓ Professor **Rəşid Əliyev** Analysis and Mathematical Physics, Integral Transform and Special Functions, IEEE Transactions on Systems, Man, and Cybernetics: Systems, Известия РАН. Серия математическая, Real Analysis Exchange və “Mathematical Reviews” .

✓ Professor **Araz Əliyev** “Mathematical Reviews”.

✓ R.e.d. **Rövşən Bəndəliyev** "Filomat", "Bulletin of the Malaysian Mathematical Sciences Society", "Fractional Calculus and Applied Mathematics", "Afrika Matematica".

✓ T.e.d., dosent **Eldar Abbasov** Extrica Nəşriyatın (Ufa ş., Rusiya Federasiyası) “Liquid and Gaseous Energy Resources” jurnalın redaksiya heyətlərinin üzvüdür; “Journal of Petroleum Science and Engineering” and “Journal of Petroleum Exploration and Production Technology”.

✓ R.ü.f.d. **Əli Hüseynli** Mathematical Journal, Canadian Mathematical Bulletin, Mathematical Review.

**Hesabat dövründə İnstitut əməkdaşlarının işlərinə əsaslı istinadlar olunmuşdur:**

**1.** “Biz öz işimizdə Kolmoqorov, Arnold, **Quliyev və İsmayılovun** fikirlərinə əsaslanırıq”. Bu sözləri V.A. Es’kin, A.O. Malkhanov və M.E. Smorkalov nüfuzlu “Journal of Computational Physics” jurnalında 2025-ci ilin may ayında çap etdirdikləri “Are Two Hidden Layers Still Enough for the Physics–Informed Neural Networks?” məqaləsində söyləmişlər.

**(bax: https://doi.org/10.1016/j.jcp.2025.114085).**

Məqalə Kolmoqorov-Arnold superpozisiya teoreminə, eyni zamanda Riyaziyyat və Mexanika İnstitutunun əməkdaşları — Funksiyalar nəzəriyyəsi şöbəsinin müdiri prof. **Vüqar İsmayılovun** və Funksional analiz şöbəsinin aparıcı elmi işçisi f.r.e.n. **Namiq Quliyevin** 2018-ci ildə Neurocomputing jurnalında çap etdirdikləri nəticəyə əsaslanır. Belə ki, Kolmoqorov və Arnold hələ keçən əsrin 50-ci illərində ixtiyari kəsilməz çoxdəyişənli funksiyanın birdəyişənli funksiyaların kompozisiyaları və cəmləri vasitəsilə dəqiq göstərilməsi üçün düstur almışdırlar. Quliyev və İsmayılov isə isbat etmişlər ki, həmin düsturda olan bütün birdəyişənli funksiyaları qeyd olunmuş

yeganə birdəyişənli funksiya ilə əvəz etməklə iki gizli laylı neyron şəbəkə modeli almaq olar və bu modelin vasitəsi ilə ixtiyari kəsilməz çoxdəyişənli funksiyanı istənilən dəqiqliklə approksimasiya etmək olar. Bundan əlavə sözü gedən qeyd olunmuş funksiya da alqoritmik qurulmuşdur (bax: https://doi.org/10.1016/j.neucom.2018.07.075).

**2.** Kanadanın Concordia Universitetinin professoru, IEEE üzvü Rastko Selmic IEEE Transactions on Cybernetics jurnalında çap etdirdiyi «Robust Adaptive Leader-Following Formation Control of Nonlinear Multiagents Using Three-Layer Neural Networks» adlı elmi **işindəki neyron şəbəkə modelini Vüqar İsmayılovun** «On the approximation by neural networks with bounded number of neurons in hidden layers. J. Math. Anal. Appl. 417 (2014), no. 2, 963–969» adlı məqaləsindəki əsas nəticəyə əsaslanaraq qurmuşdur. Belə ki, **Vüqar İsmayılovun** məqaləsində isbat edilir ki, giriş layında n, birinci gizli layında n, ikinci gizli layında 2n+2 neyronu olan ikiqat gizli laylı neyron şəbəkə ixtiyari n dəyişənli kəsilməz funksiyanı istənilən dəqiqliklə approksimasiya edə bilir. Rastko Selmic-in işində də laylarda uyğun sayda neyron götürülməklə ikiqat gizli laylı neyron şəbəkə modeli qurulmuş və həmin nəticədən əsaslı şəkildə istifadə edilmişdir.

**(bax: https://ieeexplore.ieee.org/abstract/document/1042315)**

## BEYNƏLXALQ KONFRANS

❖ **23-25 iyun 2025-ci il tarixində "TURAN-Fundamental Sciences"** Symposium (**TURAN-25**) adlı Beynəlxalq simpozium Yıldız Texniki Universitetinin təşkilatçılığı və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutunun tərəfdaşlığı ilə Türkiyənin İstanbul şəhərində keçirilmişdir.

https://turansymposium.yildiz.edu.tr/

❖ **03-05 sentyabr 2025-ci il tarixində** Riyaziyyat və Mexanika İnstitutunun təşkilatçılığı ilə "**Riyaziyyat və Mexanikanın Müasir**

**Problemləri**” adlı **XII Beynəlxalq konfrans** keçirilmişdir. Konfransın işində iştirak etmək üçün 22 ölkədən 176 elmi məruzənin tezisləri qəbul olunmuşdur. Konfransda 9 xarici ölkənin – Türkiyə (19 nəfər), Əlcəzair (6 nəfər), ABŞ (2 nəfər), Qazaxstan (1 nəfər), Qırğızıstan (1 nəfər), Norveç (1 nəfər), Litva (1 nəfər), Kuveyt (1 nəfər), Gürcüstan (1 nəfər) olmaqla ümumilikdə 32 nəfər əyani, 4 nəfər onlayn iştirak etmişdirlər. Konfransın 11 plenar iclaslarında və 10 bölmə iclaslarında 140-dan çox elmi məruzə dinlənilmişdir.




❖ 29 oktyabr 2025-ci il tarixində AMEA-nın müxbir üzvü, professor **İlham Tofiq oğlu Məmmədovun** anadan olmasının 70 illiyinə həsr olunmuş **Elmi Sessiya** keçirilmişdir.

İlham Məmmədov 1955-ci il iyulun 1-də Bakı şəhərində anadan olmuşdur. O, 1970-ci ildə 15 yaşında 27 nömrəli məktəbi qızıl medalla bitirmiş, elə həmin il Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun Tətbiqi riyaziyyat fakültəsinə daxil olmuşdur. 1974–1975-ci illərdə M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin “Hesablama riyaziyyatı və kibernetika” fakültəsində təcrübə keçmiş, 1975-ci ildə isə ali məktəbi fərqlənmə

diplomu ilə bitirmişdir. 1981-ci ildə, cəmi 26 yaşında, Ukrayna Elmlər Akademiyasının Riyaziyyat İnstitutunda "Elliptik və parabolik tənliklərin keyfiyyət nəzəriyyəsi məsələləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsini almışdır. 1975–1982-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasının "Tətbiqi riyaziyyat" kafedrasında assistent və baş elmi işçi kimi fəaliyyət göstərmişdir.

